Tarix və onun problemləri, №4 2009

KÖNÜL HACIYEVA
*Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dissertantı*

# "ƏKİNÇİ" QƏZETİNİN "ELM XƏBƏRLƏRİ" BÖLMƏSİ MƏNBƏ KİMİ

Məlumdur ki, Həsən bəy Zərdabi maarifi təblig etmək işinə çox böyük əhəmiyyət vermiş və bu prosesin öndə gedən fəallarından olmuşdur. Maarifin, elmin gücünə sarsılmaz inam Zərdabinin dövrün ziyalılarına aşağıdakı kimi müraciət etməsinə səbəb olmuşdu: "Keçmişdə "Əkinçi" qəzeti çıxanda o vaxtın şairlərindən yazıb təvəqqe eləmişdim ki, bülbülü və gülü tərif və bir-birlərini həcv etməkdən əl çəkib elm təhsil etməyin nəflərindən və biz müsəlmanlara olan zülmlərin barəsində şerlər yazıb onları bizim aşıqlara xoş şövq ilə oxumağı öyrətsinlər ki, aşıqlar onları toylarda oxuyub əhalini oyatmağa səbəb olsunlar.Onlardan bircə Seyid Əzim Şirvani elm təhsil etmək nəflərindən bir neçə şer yazmışdır ki, "Əkinçi"də çap olunmuşdur (18, s.51).

XIX əsrin ikinci yarısında Azərbaycanda əmələ gələn və artıq formalaşan iqtisadi yüksəliş, dəyişiklik xalqın mənəvi həyatına da öz təsirini göstərdi. Təbiidir ki, elm, fəlsəfə, incəsənət və ədəbiyyat əvvəlki dövrlərlə müqayisədə daha sürətlə inkişaf etməyə başladı. Maarifçilik elmlə sıx bağlı olan bir anlayışdır və elmin bir çox sahələrində zəngin biliyə, səriştəyə malik olan Həsən bəy Zərdabi "Əkinçi" qəzetinin "Elm xəbərləri" başlığı altında verilən bölməsində bir çox unikal məlumatlar vermişdir. Bu məlumatların çoxşaxəliliyi, əhatəliliyi, elmi yəqinliyi müasir oxucuda heyrət doğurmaya bilmir. "Əkinçi" qəzetinin "Elm" bölməsində gedən məlumatların çoxşaxəliliyini, universallığını nəzərə alaraq onları aşağıdakı kimi sistemləşdirməyi məqsədəuyğun sayırıq:

**1. Təbiətşünaslıqla bağlı elmi xəbərlər.**

İxtisasca, ilk növbədə təbiətşünas olan alim Həsən bəy Zərdabinin qəzetdə bu elm sahəsinə aid məlimatlara üstünlük verməsi təbiidir. Rusiyanın ilk darvinist alimi sayılan A.P.Boqdanovdan dərs alan Həsən bəy Zərdabi Moskva Dövlət Universitetində oxuyarkən həmin alimin təşkil etdiyi «Təbiəti öyrənən cəmiyyət»in fəal üzvlərindən biri idi və Azərbaycanın nəinki təkcə kəndlisinin, demək olar ki, əhalisinin böyük əksəriyyətinin bu sahəyə aid elmi biliklərinin kifayət qədər olmadığını bilirdi.

Bu başlıq altında verəcəyimiz xəbərlər sırasında təbiət hadisələrini, onların mahiyyətini, xüsusiyyətlərini izah edən informasiyalar daha çox maraq doğurur: «İldırım, yağış çox yağan vilayətlərdə çox vaxtda yerə düşüb, ziyadə zərər edir və imtahan ilə məlum olubdur ki, ildırım hündür şeylərin, məsələn hündür ağacın, ya hündür evin üstə artıq düşür. Ondan savayı məlumdur ki, bəzi ağaclar, məsələn palıd və qoz ağacları ildırımı çəkdiyinə onların üstə çox düşür, amma qovaq və daranqu ağacları onü çəkmədiyinə onların üstə ildırım düşmür» ("Əkinçi", 1875, 18 noyabr, № 9).

Qəzetin «Elm xəbərləri» bölməsi meteoroloji məlumatlardan da yan keçməyib və loru dillə hava proqnozu ilə bağlı məlumatlar verib: «...zəli ilə havanın dəyişməyin belə bilmək olur: bir şüşəni yarısınacan su ilə doldurub, onun içinə bir zəli salıb ağzını bez ilə bağlayıb evdə saxlayanda hava dəyişməyin bilmək olur: əgər sübhdən görsən ki, zəli şüşənin dibində yatıb, yəqin ki, hava yaxşı olacaq. Əgər zəli şüşənin suyunun üzünə çıxırsa, yəqin yağış ya qar yağacaq, ya bərk külək əsəcək» (Yenə orada).

**2.Tibb elminə aid xəbərlər.**

Cəmiyyət üzvlərinin maariflənməsində və dünyagörüşünün artması üçün təbliğ olunması çox vacib elm sahələrindən biri təbabətdir. Bu, bütün dövrlər üçün belə olub. XIX əsrin ikinci yarısında da, müasir mərhələdə də tibb elminə aid məlumatlar insanda xüsusi maraq doğurmuş və xüsusilə, səhiyyənin, tibbi xidmətin pullu olduğu bir dövrdə

hər bir şəxsin, fərdin tibbi dünyagörüşünün, savadının artmasına və sağlamlığının qorunmasına, xəstəliklərin qarşısının alınmasına imkan verən belə məlumatlara ehtiyac böyük idi. Xalqını, millətini dərindən sevən, onun gələcəyini, şübhəsiz ki, sağlam gələcəyini fikirləşən Həsən bəy Zərdabi və «Əkinçi» qəzetinin digər əməkdaşları belə elmi xəbərlərə qəzet səhifələrində xüsusi yer ayırmışdır. Bu xəbərləri oxuyarkən biz həm də dövrün səhiyyəsinin, tibbi xidmətinin səviyyəsi və dövrə xas hansı xəstəliklərin tüğyan etməsi barədə kifayət qədər məlumat alırıq. Məlum olur ki, dövrün qorxulu xəstəlikləri – dizenteriya, difteriya, tif, vərəm və s. bu kimi bəlalar məhz xalqın həm tibbi, həm də sağlam yaşayış tərzi, sağlam məişət ilə bağlı informasiyalardan məhrum olması sayəsində baş verir. Nümunəyə müraciət edək: «Firəngistanın Sen Didyö adlı bir yerinin altmış arşınlığında bir su quyusu var ki, ol yerin ətrafında sakin olanlar o quyunun suyunu içirlər. Çünki o suyu içən kəslər həmişə xəstə və zəif olurlar, ona binaən Lefort adlı kəs ol suyu imtahan edib deyir ki, ol suyun belə bədənə zərər etməyinə səbəb oldur ki, ol su quyusu qəbirstanlığın yanındadır və onun suyu qəbirstanlıqda çürüyən meyidlərin iyini çəkib cismi-bədəniyyata qarışıb xarab olur.

Bu səbəblərə Lefort məsləhət edir ki, hər yerdə qəbirstanlığı içilən sudan uzaqda bina etsinlər və əgər qəbirstanlıq qədim zamanədə salındığına binaən onu qeyri yerə aparmaq məqdur olmasa, ol vaxtda qəbirstanlığın ətrafında xəndək çəksinlər ki, oranın yağış suyu gedib içilən suya tökülməsin» ("Əkinçi", 1875, 20 oktyabr, № 7).

Qəzetin «Elm xəbərləri» bölməsində ilk tibbi yardımla bağlı məlumatlara da geniş yer verilib: «...burundan gələn qanı belə kəsmək olur: əgər qan burnun sağ deşiyindən gəlirsə, ol vaxtda sağ əlin kiçik barmağının ucunu dırnaqdan yuxarı və axırıncı bənddən aşağı sap ilə bərk bağlayanda, ya burnun sol deşiyindən qan gəlirsə, sol əlin zikr olan barmağını məzkur qayda ilə bağlayanda qan kəsilir» ("Əkinçi", 1875, 18 noyabr, № 9 ).

Qəzetdə gedən tibbi məlumatlar sırasında maraq doğuran xəbərlərdən biri də bir sıra xəstəliklərin irsi keçməsinin hələ o dövrlərdə məlum olması idi. Digər maraqlı xəbərlərdən biri də bir sıra xəstəliklərin təbii yataqlar və həmin yataqlardan çıxan məhsullarla işləyən şəxslərlə nə dərəcədə bağlı olması ilə əlaqədardır: «Firəngistanda təcrübə olunub ki, vəba naxoşluğu misgər və qələyçi və qeyri-mis işlədən kəslərə dəymir...Miyantino şəhərinin ətrafında ki, mis mədənləri vaqedir vəba naxoşluğu görünmür» ("Əkinçi",1876, 14 aprel, № 7). "İmtahan ilə məlum olubdur ki, insanın xasiyyəti və bəzi naxoşluqları...onun övladında tapılır və habelə zikr olan naxoşluqlar ananın südü ilə övlada yetişir..." ("Əkinçi", 1876, 15 fevral, № 3).

**3.Botanika və zoologiya sahəsinə aid xəbərlər.**

«Əkinçi» qəzetinin və onun yaradıcısının, qəzet əməkdaşlarının həyat və yaradıcılığını, publisistik fəaliyyətini tədqiq etmək ictimai elmlərin qarşısında aktual problemlərdən sayılır. Bu baxımdan Azərbaycanda bitkiçilik elminin inkişafından danışan E.Həsənovun Həsən bəy Zərdabinin bu sahədəki xidmətlərindən danışması məqsədəmüvafiqdir. Müəllif haqlı olaraq, Həsən bəy Zərdabini dövrünün kompleks biliklərə malik bir ziyalısı kimi təqdim edir və qeyd edir ki, mütəfəkkirin Azərbaycan bitkiçilik elminin inkişafında müstəsna xidməti olub (16).

Şübhəsiz ki, Həsən bəy Zərdabinin bitkiçiliklə bağlı zəngin dünyagörüşünə malik olmasının əsas iki səbəbi var idi: birincisi o idi ki, dahi şəxsiyyət sadə kəndli və zəhmətkeş ailəsində dünyaya göz açmışdı. Uşaqlıqdan torpağın, bitkilərin sirrlərinə bələd olmuşdur və bu sahədə yetərincə təcrübi material toplamışdı. İkinci səbəb isə onun uşaqlıqdan belə qazandığı təcrübəsinin nəzəri biliklərlə möhkəmləndirilməsi idi. Məlumdur ki, Həsən bəy Zərdabi Moskva universiteti kimi mötəbər bir təhsil ocağında təhsil almışdır.

«Əkinçi» qəzetinin bitkiçiliklə bağlı xəbərləri sırasında diqqəti çəkən cəhət meteorologiya və zoologiya elminin ortaq obyektini şərh edən məlumatların verilməsidir: «Hörümçək öz torunun içində bir deşik qayırıb oturub gözləyir ki, bir heyvan ona düşəndə onu şikar etsin. Çünki hava yaman olanda heyvanat gəzmədiyinə onun toruna da düşməz, ona binaən ol zaman hörümçək özü də tordan çıxıb bir yavuq yerdə, məsələn, ağacın budağının altında gizlənir» ("Əkinçi", 1876, 15 fevral, № 3).

Qəzetin son sayında, 29 sentyabr 1877-ci il tarixdə çapdan çıxmış «Elm xəbərləri» bölməsi bitki, onun çiçəyi, toxumu, yayılması və s. haqqında çox maraqlı, geniş məlumat verib, toxumun necə əmələ gəldiyini elmi cəhətdən sadə dillə izah edib və bu faktı heyvanat aləmi ilə müqayisə etmişdir.

**4. Kənd təsərrüfatı (meşəçilik, heyvandarlıq, baytarlıq, əkinçilik, bostançılıq) sahəsi ilə bağlı elmi xəbərlər.**

Qeyd etmək lazımdır ki, bu başlıq altında verilən məlumatlar çox zaman qəzetin digər bölmələrində «Daxiliyyə», «Təzə xəbərlər», xüsusilə «Əkin və ziraət xəbərləri»ndə gedən informasiyalar ilə üst-üstə düşür, bir-birini təkrarlayır. Bu da dövrün tələbi ilə bağlı təbii şəkildə ortaya çıxan problemlərin aktuallığı ilə əlaqədar izah edilə bilər:"Meyvələrin çürüməyinə səbəb onlara hava dəymək ilədir. Əgər hava dəyməsə, meyvə çürüməz. Ona binaən meyvələri çox saxlamaqdan ötrü yaxşıdır onları havadan mühafizət edəsən..."("Əkinçi", 1875, 20 sentyabr, № 5).

**5.Tarix, coğrafiya və digər ictimai elmlərlə bağlı məlumatlar.**

«Əkinçi» qəzetinə Həsən bəy Zərdabi kimi mükəmməl təhsil və həyat təcrübəsi qazanmış bir şəxs rəhbərlik edirdi. Onun ətrafına toplaşan gənc ziyalılar və maarifçilər də eyni ruhlu insanlar idi və bildiklərini, eşitdiklərini, təcrübədən keçirdiklərini, bir sözlə, qazandıqları bütün mənəvi keyfiyyətləri xalqla bölüşmək həvəsində idilər. Bu səbəbdən də «Əkinçi» qəzetinin səhifələrində müxtəlif elm sahələrinə aid elmi cəhətdən samballı və dəyərli məlumatlar üstünlük təşkil edirdi. Həsən bəy Zərdabinin coğrafi dünyagörüşündən danışan coğrafiyaçı alim B.Budaqov haqlı olaraq belə bir nəticəyə gəlir ki, Həsən bəy Zərdabinin «Seçilmiş əsərləri»ndə, o cümlədən təsisçisi olduğu «Əkinçi» qəzetinin saylarında çoxşaxəli informasiyalara rast gəlmək mümkündür və müxtəlif ictimai elmlər üzrə tədqiqat aparan şəxslər bu məlumatlardan bəhrələnə bilərlər (17).

Universal bilikləri əks etdirən qəzetin dilçiliklə, digər müvafiq ictimai elmlərlə bağlı məlumatları verməsi təbiidir: «Gürcüstanda ud adlı bir tayfa var ki, onun dilində Misir əhlinin dilinin sözlərindən çox sözlər var» ("Əkinçi", 1875, 18 noyabr,№ 9). Məqalənin müəllifi təkcə təsvirlə kifayətlənməmiş, eyni zamanda bu hadisənin özəyində duran amilləri də tarixi baxımdan izah etmiş və beləliklə tarix elmi ilə dilçiliyin üzvi vəhdətini nümayiş etdirən bir məlumat, elmi yəqinlik vermişdir: «Qədim tarixlərə binaən Misir əhli bir neçə min il bundan əvvəl Gürcüstanı zəbr etmişlər imiş. Belə görünür ki, onların bir güruhu bizim Gürcüstanda qalmış imiş . ...İndi elm sahibləri ol tayfanın dilini öyrənib onun Misir əhli olmağını sübut edirlər» (Yenə orada).

Yer üzündə baş verən təbii fəlakətlərin, zəlzələlərin xronologiyasını əks etdirən aşağıdakı xəbər maraqlı tarixi mənbədir: «Keçən il (1875-ci il nəzərdə tutulur – H.K.) yer üzündə 97 zəlzələ olub. Onlardan üç ay qışda, 34 ki 15-i yanvarda, 7-si fevralda, 12-si dekabrda. Baharda 28-i ki, 12-si martda, 7-si apreldə, 9-u mayda, yayda 21-ki 10-u iyunda, 6-sı iyulda, 5-i avqustda. Payızda 14-ü ki, 3-ü sentyabrda, 2-si oktyabrda, 9-u noyabrda vaqe olub. Onların hamısından bərki Novi Qranada vilayətinin Kököt şəhərində olub ki, bir zəlzələdən 16 mindən ziyadə adam tələf olub» ("Əkinçi", 1876, 8 sentyabr, № 17).

**6.Mədəniyyətşünaslıqla bağlı xəbərlər.**

Mədəniyyət tarixində böyük bir hadisə, inqilab sayılan «Əkinçi» qəzetinin bu problemlərlə bağlı xəbərlərdən yan keçməsi mümkün deyildi: «Avropa məmləkətlərində kitabxanalar var ki, hər kəs gedib lazım olan kitabı orada oxuya bilir. Ol kitabxanalarda olan kitabların və hər bir məmləkətin xalqının hesabına gedib, belə bəyan edirlər ki, Firəngistanda və İtaliyada hər 100 adama 12, Belğidə 11, Avstriyada 7, İngilisdə 6 və Rusiyada 1 kitab düşür" ("Əkinçi" , 1876, 25 iyun, № 12). "Amerikada yazı yazmaqdan ötrü bir maşın ixtira olunub ki, fortepianoya oxşayır. Onun hər dilini basanda bir hərf yazılır. Deyirlə bu maşın əl ilə yazmaqdan birə-bir tez və yaxşı yazır"("Əkinçi", 1876, 8 oktyabr, № 19).

**7. İqtisadiyyatla bağlı xəbərlər.**

Əslində, bu başlıq altında verdiyimiz məlumatlar həm elmi səciyyə daşıyır, həm də təzə xəbərlər kimi təqdim edilə bilər. Lakin qəzet özü bu məlumatları «Elm xəbərləri» bölməsində verdiyinə görə, bunlar iqtisadiyyatla bağlı xəbərlər kimi təqdim edilir: «Çünki yağsız zindəganlıq etmək müşgüldür və Avropa dövlətlərində xalq çox olduğuna çox mal saxlamaq olmur, ona binaən yağ baha olur. Bu səbəblərə Amerikada bir zavod bina edib, mal piyindən inək yağına oxşayan yağ qayırırlar» ("Əkinçi", 1876, 25 iyun, № 12).

Qəzetin 4 avqust 1877-ci il tarixli sayında İngilis və Rusiya dövlətlərinin iqtisadiyyatının, sənayesinin qısa mənzərəsi statistik hesablamalarla verilib.

**8. Statistika sahəsinə aid xəbərlər.**

«Əkinçi» qəzetində gedən statistik məlumatlar fəaliyyətin müxtəlif sahələrini əhatə edirdi. Məsələn, qəzetin 22 oktyabr 1876-cı il tarixli sayında Osmanlı dövlətinin Avropa qitəsində olan vilayətlərində yaşayan müsəlmanların, xristianların, qeyri-tayfaların, yəhudilərin, qaraçıların və başqalarının dəqiq statistik hesablaması verilib ki, müvafiq elmi əsərlərdə həmin məlumatdan tarixi mənbə kimi yararlanmaq olar. Yaxud qəzetin 12 may 1877-ci il tarixli sayında verilən məlumatlarda Qızılağac qəryəsində quduz çaqqalın qurbanlarının, təbii fəlakətin ziyan vurduğu tikili və başqa vasitələrin dəqiq sayı və s. göstərilib. Eyni zamanda bir qədər əvvəldə zəlzələlərin xronologiyası və bir sıra ölkələrdə hər 100 adama düşən kitabların sayı haqqında qeyd etdiyimiz misalları statistika sahəsinə aid xəbərlər kimi də nəzərdən keçirmək olar. Qəzetin «Elm xəbərləri» bölməsində dünyanın bir çox ölkələrində çap olunan qəzetlərin statistik hesablaması maraq doğurmaqla yanaşı, ürək ağrıdır: «Yazırlar ki, yer üzündə 23 min qəzet çap olunur. Germaniyada 3775, Avstriyada 1200, Şvedsariyada 450, İngilisdə 2500, Firəngistanda 2000, İtaliyada 1126, Rusiyada 500, Şvedsiyada 296, Norvegiyada 178, Daniyada 250, İspaniyada 400, Portuqaliyada 250, Hollandiyada 250, Belgiyada 250, Osmanlıda 200, Şimali Amerikada 8129, Cənubi Amerikada 1000, Hindistanda 250, Çində 50, Japoniyada 75, İranda 2 və Asiya qitəsinin qeyri vilayətlərində 10, Afrika qitəsində 50, Avstraliya qitəsində 100» ("Əkinçi", 1877, 4 avqust, № 16).

Bu həmin dövrə aid faktdır ki, Azərbaycanda çox böyük çətinliklərə, təqiblərə, maneələrə baxmayaraq, tarixi mənbə kimi müraciət etdiyimiz həmin bircə qəzet çap olunurdu.

**9.Hüquq və kriminalistika sahəsi ilə bağlı xəbərlər.**

Qəzetin «Elm xəbərləri»ndə verilən məlumatlar sırasında hüquq və kriminalistika sahəsi ilə bağlı yetərincə məntiqli, elmi, samballı məlumatın olması bir daha «Əkinçi» qəzetinin tarixi və elmi mənbə kimi universallığını sübut edir. Bu məsələdə qəzetin yaradıcısı və rəhbəri Həsən bəy Zərdabinin elmi, savadı, dünyagörüşü böyük əhəmiyyət kəsb edirdi. Bəzi elmi mənbələrdə Həsən bəy Zərdabi xüsusi hüquqi dünyagörüşünə malik bir şəxs kimi təqdim edilir. «H.B.Zərdabinin hüquqi görüşləri də əhəmiyyətlidir

və xüsusi maraq doğurur. Onun ədalət məhkəməsi və qanunçuluq barədə mülahizələri XIX əsrin axırlarında təşəkkül tapmağa başlayır. Bu elə bir vaxta təsadüf edir ki, mütləqiyyət müsəlmanların ruhani məhkəmələrinin hüquqlarını məhdudlaşdıraraq hakimiyyətin dayaqlarını möhkəmləndirmək məqsədilə Zaqafqaziyada yeni məhkəmələrin yaradılmasına cəhd edir, həmin istiqamətdə müxtəlif addımlar atır, çarizmi təmin edən mürtəce qanunçuluq prinsiplərini tətbiq etməyə çalışır. Zərdabinin hüquqi görüşlərində, ilk növbədə dövrün humanist ziyalılarını, mütəfəkkirlərini narahat edən məsələlərə, hər şeydən əvvəl isə, cinayətkarlıq və cəza məsələsinə xüsusi diqqət yetirilir» (15, s.442-443). Həsən bəy Zərdabi Azərbaycanda, Rusiyanın müstəmləkəçiliyi altında yaşayan Zaqafqaziyada cinayətkarlığın geniş miqyas almasını və cinayətkarlara bir çox hallarda törətdikləri cinayət müqabilində haqlı cəzanın verilməməsini tənqid edirdi və bu işdə ictimai-siyasi amillərlə yanaşı, bir cəhəti də xüsusi nəzərə çatdırırdı. Belə ki, o, xalqın hüquq və azadlıqlarını kobudcasına pozulmasının səbəbi kimi məhkəmələrin milli dildə deyil, rus dilində aparılmasını göstərirdi. Rus dilinə dərindən bələd olmayan milli məmurlar, avam camaat üçün bir sıra hüquqi mətləblər açılmamış qalırdı və belə hallar çar məmurlarının mənafeyinə xidmət edirdi. Həsən bəy Zərdabi, dediklərimizlə yanaşı, hətta səriştəli hüquqşünas kimi çıxış edərək dövrün cinayətkarlığını şərtləndirən amilləri də təsnif edirdi (Bu barədə bax: 15, s.441-447).

Həsən bəy Zərdabinin hüquqi, siyasi və ictimai dünyagörüşünün zənginliyinin təbii nəticəsidir ki, «Əkinçi» qəzetinin səhifələrində hüquq elminin dar ixtisas çərçivələri daxilində elmi məlumatlar çap edilirdi. Məsələn, cinayətkarlığın bayaq göstərdiyimiz kimi, kifayət qədər inkişaf etdiyi bir ölkədə onun açılmasına birbaşa xidmət edən kriminalistika sahəsinə aid yetərli qədər məlumata rast gəlinir. Təbiidir ki, bu məlumatlardakı kriminalistik izahat dövrün texniki xüsusiyyətləri ilə bağlıdır: «Bizlərdə oğrunu bəzi vaxtda ləpir ilə cüstucu edirlər və kəndlərdə olunan oğruluğun çoxunu atlı adam edir, ona binaən atının yeriməyindən və onun ləpirindən danışacağıq. At yorğalıyanda hər tərəfinin iki ayağını birdən qalxızıb, birdən yerə qoyar. Addım ilə gedəndə hər bir ayağını tək yerə qoyar... Yeriş ilə gedəndə iki ayağını birdən, yəni sağ tərəfin qabaq ayağı ilə sol tərəfin dal ayağını birdən və sol tərəfin qabaq ayağı ilə sağ tərəfin dal ayağını birdən yerə qoyar. At yeriş ilə və addım ilə gedəndə onun hər tərəfinin iki ayağından bir ləpir düşür...» ( "Əkinçi" , 1876, 15 fevral, № 3).

«Elm xəbərləri» bölməsi qəzetin bütün saylarında ardıcıl verilməsə də, belə demək olar ki, həmin orqanın ən samballı və ən oxunaqlı bölmələrindəndir. Belə ki, bu şöbədə təkcə Azərbaycanla bağlı olan məsələlər deyil, həm də dünyada gedən və artıq tarixə çevrilmiş proseslər, tarixi faktlar, etnoqrafik məlumatlar, adət-ənənələr və müxtəlif mövzularda yazılar dərc olunurdu və o, qəzeti oxuyan hər bir kəs üçün gərəkli informasiya mənbəyinə çevrilirdi. «Əkinçi» qəzetinin «Elm xəbərləri» bölməsindən verdiyimiz misallar belə bir nəticəyə gəlməyə imkan verir ki, Həsən bəy Zərdabi və onun ətrafında toplaşan ziyalılar Azərbaycan mədəniyyətini, adət-ənənəsini yüksək qiymətləndirməklə yanaşı, olanlara qane olmaq və keçmişlərlə öyünməkdən yaddırlar və xalqın milli şüurunun oyanmasında, formalaşmasında, dünyagörüşündə müəyyən arzuolunan nəticələrə nail olmaq üçün elm, maarif, təhsil yolunda bütün çətinliklərə, əzab - əziyyətlərə dözmüş və Azərbaycan xalqının, millətin elmi və mədəni səviyyəsinin yüksəlməsinə öz töhfələrini vermişlər. "Əkinçi" qəzetinin saylarından birində verilən aşağıdakı cümlələr Həsən bəy Zərdabi və onun məsləkdaşlarının ideyasını, məqsəd və vəzifələrini çox gözəl açıqlamaqla yanaşı müasir dövrümüzlə də səsləşir: " ... əgər bir kişi elm ədəbi tərbiyə ilə mədəniyyəti bitərəf edib pul qazanmaqlığı ondan yaxşı tutursa, ol kişidən millətpərvərlik məlum olurmu? Haşa" ("Əkinçi", 1875, 2 dekabr, № 10).

### *ƏDƏBİYYAT:*

1. "Əkinçi"qəzeti , 1875, 20 sentyabr, № 5.
2. "Əkinçi" qəzeti, 1875, 20 oktyabr, № 7.
3. "Əkinçi" qəzeti , 1875, 18 noyabr, № 9.
4. "Əkinçi" qəzeti, 1875, 2 dekabr, № 10.
5. "Əkinçi" qəzeti, 1876, 15 fevral, № 3.
6. "Əkinçi" qəzeti, 1876, 14 aprel, № 7.
7. "Əkinçi" qəzeti, 1876, 25 iyun, № 12.
8. "Əkinçi" qəzeti, 1876, 8 sentyabr, № 17.
9. "Əkinçi" qəzeti, 1876, 8 oktyabr, № 19.
10. "Əkinçi" qəzeti, 1876, 22 oktyabr, № 20.
11. "Əkinçi" qəzeti, 1877, 12 may, № 10.
12. "Əkinçi" qəzeti, 1877, 4 avqust, № 16.
13. "Əkinçi" qəzeti, 1877, 29 sentyabr, № 20.
14. "Əkinçi", 1875-1877 (Tam mətni). Bakı, Azərnəşr, 1979.
15. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı, 2002.
16. Həsənov E. Azərbaycanda bitkiçilik elminin inkişafında Həsən bəy Zərdabinin rolu. "Respublika" qəzeti, 2005, 4 sentyabr.
17. Будагов Б.А. О географических взглядах Гасанбека Зардаби. Резюме. Известия АН Азерб. ССР, серия геол.-геогр. Науки. 1960, № 3.
18.Геюшов З.Б. К вопросу о характере мировоззрения Г.М.Зардаби. Науч. Доклады высш. Школы Философ. Науки, 1961, № 1.

**КЕНУЛЬ ГАДЖИЕВА**
***Диссертант БГУ Исторического факультета***

### ГАЗЕТА «ЭКИНЧИ» В РАЗДЕЛЕ «НОВОСТИ НАУКИ» КАК ИСТОЧНИКИ

В статье исследуется информация, опубликованная на страницах газеты «Экинчи» в разделе «Новости науки». В то же время, эта информация систематизируется по заголовкам: «Научные новости природоведения», «Новости медицины», «Новости ботаники и зоологии», «Новости отраслей сельского хозяйства (лесничество, животноводство, ветеринарство, земледелие, бахчеводство)», «Информация, связанная с историей, географией и другими социальными науками», «Новости культуроведения», «Новости экономики», «Статистические новости», «Новости права и криминалистики», а также подчеркивается то, что хотя раздел «Новости науки» публиковался не последовательно, все же являлся одним из наиболее содержательных и читаемых разделов газеты «Экинчи».

**KONUL HADJIYEVA**
***Author of dissertation of the History faculty of BSU***

### THE NEWSPAPER "EKINCHI" IN THE SECYION OF "SCIENCE NEWS" AS A SOURCE

In the article is investigated the information published on pages of the newspaper «Екинchи» in the section of "Science news». At the same time this information is systematised on headings: «Scientific news of natural study», «Medicine news», «Botany and zoology news», «News of branches of agriculture (a forest area, animal industries, veterinary science, agriculture, melon growing)», «The information connected with history, geography and other social sciences», «News of culture studies», «Economy news», «Statistical news», «The right and criminalistics news», and also is underlined that though the section of "Science news» was published not consistently, nevertheless was one of the most substantial and readable sections of the newspaper «Екинchи».

***Rəyçilər: t.e.n.S.Əliqızı, t.e.d.A.C.İsgəndərov.***
***BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının 10 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***